Xalq qəzeti.- 2024.- 31 may, № 113.- S.12.

Turan dünyası

# Xristian türklər: qaqauzlar

## II yazı



**Qaqauz Moldovanın tərkibində muxtar respublikadır. Qaqauzlar oğuz mənşəli türk xalqıdır. "Qaqauz" sözünün etimoloji mənası isə "gök-oğuz" deməkdir.**

Bizans mənbələrinə görə, qaqauzlar Balkanlara və indiki Ukrayna bölgəsinə, təxminən, XI əsrdə Asiyadan köç edən oğuz tayfalarındandır. Türkdilli xalqların oğuz qrupuna aid olan qaqauzlar peçeneqlər və qıpçaqlarla da qarışmışdır.

Keçmiş postsovet məkanında 300 mindən çox qaqauz yaşayır. Onların əksəriyyəti Moldovanın cənubunda yerləşən Bucak bölgəsində məskunlaşıb. Qaqauz kəndləri Rumıniya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Kabardin-Balkarda, eləcə də Ukraynanın Odessa və Zaporojye quberniyalarında yerləşir. Moldovadakı Qaqauz muxtariyyətindən əlavə, Kişinyovda 8000, Benderdə 1600, Dnestr çayının şimal sahilində 3300, Balkanlarda, Bolqarıstan və Yunanıstanda isə təxminən 20 min qaqauz yaşayır.

Qaqauzlar dini inanc etibarı ilə xristianlığın pravoslav qoluna aiddirlər. XI əsrdə Balkanlara köç edən qaqauzlar pravoslav xristianlığı qəbul etmiş, daha sonra isə Osmanlı imperiyasının tərkibində yaşamışlar. XVIII-XIX əsrlərdə bolqarların təzyiqinə tab gətirə bilməyən qaqauzlar 1750-1846-cı illərdə Dunay çayı (Tuna çayı) vasitəsilə Rusiyaya tərəf hərəkət edərək Dunay bölgələrində, həmçinin Bessarabiyada (1801-1812) məskunlaşmışlar. Hazırda Moldovada yaşayan qaqauzların bir hissəsi XIX əsrin əvvəllərində türk-rus müharibələri zamanı Bolqarıstandan Moldova ərazisinə köç etmişlər. Qaqauzlar müxtəlif tarixi dönəmlərdə Osmanlı imperiyasının, çar Rusiyasının, Rumıniyanın və keçmiş SSRİ-nin tərkibində yaşayıblar.

Qaqauz hazırda Moldovanın tərkibində muxtar respublika statusundadır.

### Folklor, dil, inanc, adət-ənənələr

"Bozqurd adına and olsun!" – bu ifadə qaqauzların ən qutsal, ən sərt andıdır. Heç də təsadüfi deyil ki, qaqauz xalqının totemi canavardır. Onların qədim inancına görə, qaqauz xalqı boz qurddan törəyib. Boz qurdla bağlı inanclar, çoxlu deyimlər və rəvayətlər qaqauz folklorunda geniş yer almaqdadır. Qaqauz ulusunda canavar öldürülə bilməz. Qurdun adı ehtiram əlaməti olaraq, astadan, yavaş səslə deyilir. Canavar dişi qaqauz kişilərinin ən sevimli amuletidir.



Payız fəslində qaqauzlar canavar bayramları keçirirlər. Bu törənlər "Qurd həftəsi" kimi də tanınır. "Qurd həftəsi"ndə qadınlar gündəlik işlərə, yun əyirmə, toxuculuq, tikiş və digər məşğuliyyətlərinə ara verirlər. Kişilər vacib olmadıqda evdən çıxmamağa çalışırlar. Qədimdə qurd törəni günlərində insanlar biri-biri ilə bayramlaşmaq, bayram payı göndərmək üçün evlərin bacalarını örtmürdülər.

Qaqauzlar qədim türk inanclarından başqa xristianlıqdan gələn dini ritualları da qeyd edirlər. Məsələn, Müqəddəs Andrey Günündə kilsədə dualar edir, "pis ruhlar"dan qorunmaq üçün qapılara sarımsaq və ya ətirli otlar sürtürlər.

Qaqauz toylarına möhtəşəm el şənliyi də demək olar. Adətə görə gəlin toyda yaşıl paltar geyinir. Tül və örtük əvəzinə gəlinin saçlarına məsumluq rəmzi kimi ətirşah gülü toxuyurlar. Toylar bir qayda olaraq, üç gün davam edir və böyükdən-kiçiyə hamı orada şənlənir.

Qaqauzların "mani" adlandırdığı dörd misralı folklor şeir nümunələri Azərbaycan bayatıları ilə çox yaxın, hətta bəzən əkizdir. Bir çox türk xalqlarında olduğu kimi, qaqauzlarda da "Koroğlu", "Aşıq Qərib", "Əsli-Kərəm", "Arza-Qəmbər" dastanları, eləcə də Nəsrəddin lətifələri dillər əzbəridir. Bunlarla bərabər onların başqa türk xalqlarında olmayan folklor nümunələri də mövcuddur. Bunlardan "Sevastopol türküsü"nü, 1877-1878-ci illərin Osmanlı–Rusiya müharibəsinə aid dastanları, 1828-ci il Vama müharibəsinə həsr olunmuş dastanı və Türkiyədə də populyar olan "Yəmən türküləri"ni göstərmək olar.

Qaqauz dilinin özəlliklərinə gəldikdə isə, bir neçə məqamı qeyd etmək istərdik. Qaqauz türkcəsində bəzən bizdə işlənən eyni sözdəki "h" səsi düşür. Məsələn, onlar "hava" sözünü "ava", "haçan" sözünü "açan", "həm" sözünü "əm" kimi səsləndirirlər. Saitlə başlayan bəzi sözlərdə isə, əksinə, başlanğıca "h" səsi əlavə edərək, məsələn, anbar yox hanbar, ayaq yox hayaq deyirlər. Qaqauzlar bir də "ğ" səsini, ümumiyyətlə, işlətmir, məsələn, "dağlar" yerinə "daalar", "ağladım" yerinə "aaladım" deyirlər. Bəzən sözün əvvəlində və ortasında "y" səsi düşür. Məsələn: "yeddi" – "eddi", "yemək" –"emək", "yer" – "er", "yemiş" – "emiş". Ümumiyyətlə, qaqauz türkcəsi Azərbaycan türkcəsinə daha yaxındır. Onlarda da bəzən "lar", "lər" kimi cəm şəkilçilərinin yerinə "nar", "nər" işlənir. Məsələn, insanlar yox insannar, onlar yox onnar, fincanlar yox fincannar və sair.

Tarixən digər türk xalqlarında olduğu kimi, qaqauzlarda da monoqam ailə tipi (birərlilik, birarvadlılıq) mövcud olub. Qaqauz kişisi və qadınları ailəsinə sadiq, xalqına və adət-ənənələrinə bağlı insanlardır. Qurd törəsi qaqauzların yaşam tərzinə, ailə və icma qaydalarına birbaşa təsir edib.

Beləliklə, bu qədim türk xalqı əsrlər boyu öz kimliyini, milli, mədəni varlığını günəşli Moldova torpaqlarında qoruyub saxlamaqdadır.

***Murad KÖHNƏQALA***